iki sahil 2020.- 14 oktyabr.- S.3.

*Prezident İlham Əliyev:*

# Müzəffər Azərbaycan Ordusu hər gün yeni hərbi uğurlara imza atır



Bu gün Azərbaycan Ordusu beynəlxalq hüququn bütün norma və prinsiplərinə uyğun şəkildə Ali Baş Komandanın rəhbərliyi altında uzun illərdən bəri hökm sürən tarixi ədalətsizliyi aradan qaldırır, işğal altında olan torpaqların işğaldan azad olunması uğrunda müqəddəs xilaskarlıq missiyanı yerinə yetirməkdədir. Cənab Prezident İlham Əliyev hər zaman bəyan edib ki, Azərbaycan heç bir zaman işğal faktı ilə razılaşamayacaq və torpaqlar mütləq işğaldan azad olunmalıdır.

Dövlətimizin başçısı əzmli, qətiyyətli siyasətçi, humanist Prezident olduğunu bir daha sübut edir. Bunu görən və çıxılmaz vəziyyətə düşən Ermənistan hakimiyyəti, xüsusən də Paşinyan artıq etiraf edir ki, Azərbaycanın qarşısında duruş gətirə bilməyəcək. Prezident İlham Əliyev xarici telekanallara, o cümlədən "Rossiya 1" telekanalında yayımlanan "60 dəqiqə" proqramına, "Əl-Cəzirə", "Əl-Ərəbiyə", "TRT Haber", "Pervıy Kanal", "CNN Türk", "Euronews", "CNN International", "Sky News", "Haber Global" və "RBK" telekanallarına verdiyi müsahibələrində Dağlıq Qarabağ münaqişəsinin tarixi, Ermənistanın 30 ildir davam etdirdiyi işğalçılıq siyasəti, bu müddət ərzində respublikamıza vurduğu zərər, mülki əhalinin qətlə yetirilməsi və digər terror aktları barədə müfəssəl məlumat verib. Dünya ictimaiyyəti Ermənistanın faşizm ideologiyasına sadiqliyi və faşist xisləti barədə məlumatlandırılıb. Bu da ölkəmizin informasiya müstəvisində üstünlüyü idi.

Ali Baş Komandan Türkiyənin "Haber Global" televiziya kanalına müsahibəsində bildirib ki, Azərbaycan Ordusunun xilaskarlıq missiyası davam edir: "Hər gün biz yeni mövqeləri azad edirik. O mövqelər şərt deyil ki, kənd olsun, yaxud da ki, şəhər olsun. Təpə olsun, dağ olsun - o, kənddən, şəhərdən daha önəmlidir. Şəhərlərə biz onsuz da qayıdacağıq. Bizim üçün əsas məsələ strateji yüksəklikləri almaqdır. İndi Hadrutun bütün ətrafı bizim nəzarətimizdədir. Şəhərdə də biz varıq. Amma şəhərə girək-girməyək o başqa məsələdir. Bizim qarşımızda indi belə bir siyasi vəzifə yoxdur ki, mütləq bu gün oranı elan edək, sabah oranı elan edək. Yoxdur. Bəzi hallarda biz kəndləri, şəhərləri azad edirik, bir gün, iki gün sonra açıqlama veririk. Bunun da taktikası var."

Dövlətimizin başçısı dəfələrlə bəyan edib ki, bizim dinc əhali ilə işimiz yoxdur. Bizim müharibəmiz mülki vətəndaşlarla deyil. Əsgərlərimiz öz ərazilərimizdə, Azərbaycanın ərazi bütövlüyü uğrunda işğalçıya qarşı vuruşur. Hətta Ermənistanın havadarları olan dövlətlər və böyük güclər tərəfindən təzyiqlərə məruz qalan Prezident İlham Əliyev öz prinsipiallığını və qəti əzmini bir daha nümayiş etdirir, mövqeyindən kənara çəkilmir, bu təzyiqlərə mərd-mərdanə sinə gərməkdədir. Azərbaycanın milli maraqları Prezident İlham Əliyev üçün ən ali dəyərlərdir.

Ordumuz qarşısında aciz qalan Ermənistanın baş naziri mülki əhalini hədəfə alıb. Bir tərəfdən, sülh danışıqlarına yalvaran, digər tərəfdən mülki şəxsləri hədəfə alan, onlara qarşı terror aktları törədən Paşinyanın nasist babasının yolunu davam etdirdiyinə heç bir şübhə yoxdur.

Sentyabrın 27-dən etibarən erməni vandalları 41 mülki şəxsi qətlə yetirib, 200 nəfərdən çoxunu isə yaralayıblar. Halbuki bu, beynəlxalq hüquqda insanlıq əleyhinə cinayətdir. Artıq Ermənistan tərəfi bu cinayəti açıq şəkildə törədir. Dağlıq Qarabağa heç bir aidiyyəti olmayan Gəncə və Mingəçevir şəhərlərini ağır artilleriya qurğularından və raketlərdən mütəmadi atəşə tutmaq, dinc əhalini, uşaqları qətlə yetirmək, yaşayış sahələrini dağıtmaq faşistlərə xas qəddarlıqdır. İnsanlıq əleyhinə yönəlmiş çirkin əməllərindən əl çəkməyən Ermənistanın beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozmasına dünya birliyində susqunluq bu norma və prinsiplərin əhəmiyyətsiz olduğundan xəbər verir.

Dövlətimizin başçısı "Haber Global" televiziya kanalına müsahibəsində bildirib ki, atəşkəs rejimi tətbiq olunandan sonra Ermənistan demək olar ki, dərhal öz çirkin əməllərini davam etdirmişdir: "Təəssüf ki, biz bunu görmədik və saat 12-dən qüvvəyə minməli olan atəşkəs Ermənistan tərəfindən pozulmuşdur. Bildiyiniz kimi, ondan sonra gecə saatlarında mülki şəxslərə qarşı dəhşətli cinayət törədilmişdir. Gəncə şəhəri bombardman edilmişdir. Şəhər "Toçka-U" raketləri ilə atəşə məruz qalmışdır və bunun nəticəsində mülki vətəndaşlar həlak olmuş və yaralanmışlar. Bu, erməni faşizminin eybəcər sifətinin növbəti təzahürüdür."

Ermənistan güclü və qüdrətli Azərbaycan Ordusunun qarşısında məğlub olduqca, dünyadakı havadarlarına daha çox yalvaryaxar edir. Hətta ermənilərin son döyüşlərlə əlaqədar da erməni diaspor təşkilatları və onların havadarları, dünya erməniliyi Azərbaycana qarşı mətbuat savaşına başlayıblar. Cənab İlham Əliyev müsahibəsində bildirib ki, bu gün dünya mətbuatında bir çox hallarda təhrif edilmiş məlumatlar yer alır: "Ona görə Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq üçün bizim böyük səylər göstərməyimiz gərəkdir. Bu baxımdan Türkiyənin mətbuat nümayəndələrinə xüsusi təşəkkürümü bildirmək istəyirəm. Çünki demək olar, hər gün gecə-gündüz Türkiyənin aparıcı televiziya kanalları, digər mətbu orqanları bu münaqişə ilə bağlı həqiqətləri dünyaya çatdırır."

Azərbaycan Ordusunun ağır zərbələri nəticəsində düşmən həm canlı qüvvə, həm də hərbi texnika baxımından böyük itkilərə məruz qalıb. Artıq uzun illər ərzində işğal altında qalan torpaqlarımızın bir hissəsi azad edilib və Azərbaycan böyük zəfərə bir az da yaxınlaşıb. Dövlətimizin başçısı "Haber Global" televiziya kanalına müsahibəsində vurğulayıb ki, müzəffər Azərbaycan Ordusu hər gün yeni hərbi uğurlara imza atır: "Hər gün, demək olar ki, ya hansısa bir şəhər, ya kənd işğaldan azad edilir, yaxud da bu kəndlərin ərazisi nəzarət altına alınır. Bu gün deyə bilərəm ki, bir neçə yaşayış məntəqəsi indi bizim tam nəzarətimiz altındadır. Sadəcə olaraq, o yaşayış məntəqələrinə biz hələ girməmişik, çünki hərbi nöqteyi-nəzərdən buna ehtiyac yoxdur. Ancaq müəyyən müddətdən sonra biz növbəti elanlar edəcəyik."

✍ **Orxan Vahidoğlu,**
***"İki sahil"***